UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.755

# DÖVLƏTÇİLİK İRSİMİZ: AĞQOYUNLU DÖVLƏTİNİN BAYRAĞI

**KÖNÜL İMAMVERDİYEVA**
*Dövlət Bayrağı Muzeyinin direktoru,*
*tarix üzrə fəlsəfə doktoru*

*E-mail: k.imamverdiyeva@gmail.com*

Dövlətin suverenliyini və kimliyini təcəssüm etdirən başlıca simvollardan biri olan bayraqlar müasir görkəmlərini alana kimi uzun inkişaf yolu keçmişlər. Yaranma tarixi çox uzaq keçmişə gedib çıxan dövlət bayraqları və rəmzləri onlara oxşar funksiyası ilə hələ Şumer, Babil, Qədim Misir, Qədim Çin, Qədim Hindistan kimi ilk dövlətlərin yarandığı dövrdən məlumdur. Müasir elmi ədəbiyyatda "veksilloidlər" adlandırılan bayraqların ilkin forması uzun dirəklər üzərində müxtəlif bəzək ünsürlərindən və sakral elementlərdən tərtib olunan xüsusi tanınma, fərqləndirmə nişanlarından ibarət olmuşdur. İnsanların hansısa tayfaya, ordu birliyinə mənsubluğunu bildirən ilk bayraqlar həm də tayfa, qəbilə birlikləri başçılarının hakimiyyət rəmzi hesab olunurdu [3, s.8].

Bayrağın sahibinin və himayədarının yüksək sosial statusunu nümayiş etdirən ən mühüm rəmz kimi böyük rolu, əsasən, onunla izah edilirdi ki, bir çox türk xalqlarında bayraq təkcə tayfa və ya tayfa birliyinin zahiri ifadəsi, ictimai hakimiyyətin əsas əlaməti deyildi, həm də liderin bu birliyin bütün digər üzvləri üzərində hökmranlığını göstərən əvəzsiz vasitə idi.

Türk xalqlarının yaşadıqları ərazilərlə müqayisədə Avropada bayraqların rəmzi anlam kəsb etməsi və yayılması orta əsrlərə, səlib yürüşlərindən sonrakı dövrlərə təsadüf edir. Orta əsrlərdə üzərində sülalələrin fərqləndirici xüsusiyyətləri əks olunan bayraqlar kral və zadəgan ailələrinin kimliyini göstərən vacib atributa çevrilmişdi. Bayrağa müqəddəs bir obyekt kimi münasibət də məhz orta əsrlərdə inkişaf etmiş, bu münasibət yeni və müasir dövrdə bayrağın dövlət rəmzi kimi qavranılmasında xüsusi rol oynamışdır. İlk olaraq hərbi məqsədlər və təntənəli mərasimlərdə istifadə olunan bayraqların funksiyaları vaxt keçdikcə genişlənməyə başlayır.

Qeyd etmək lazımdır ki, orta əsrlərdə hərbi işin inkişafı ilə bağlı olaraq bayraqlar həm də hərbi əhəmiyyət kəsb etməyə başlamışlar. Onlar ordunun mərkəzini və yaxud hərbi rəhbərin yerini təyin edirdi. Bayraqlar eyni zamanda hərbi rəhbərə döyüşün gedişatına nəzarət etməyə kömək edirdi, çünki bayraqların mövqeyi ona özünün və düşmən qoşun hissələrinin yerləşdiyi yerləri uzaqdan müəyyən etməyə və onların hər bir dəyişikliyinə operativ reaksiya verməyə imkan verirdi. Bayrağın itirilməsi məğlubiyyət demək idi. Ağqoyunlu dövlətinin salnaməçisi Əbu Bəkr Tehrani müharibədə bayraqların hərəkəti ilə xüsusi siqnallar verməyin mümkün olduğunu bildirirdi. O, bayrağı döyüş vasitəsi və qələbənin ilk əlaməti kimi təsvir etmişdir [7, s.44]. Zaman keçdikcə bayraqların konkret sülalələrlə deyil, müəyyən ərazilərlə - dövlətlərin hüdudları, tayfa və tayfa birliklərinin məskunlaşdıqları torpaqlarla əlaqələndirilməsinə başlanıldı. Beləliklə, başqa siyasi və ideoloji mənalar daşıyan bayraqlar dövləti təcəssüm etdirmək üçün istifadə olundu...

Azərbaycan ərazisində mövcud olmuş müxtəlif dövlətlərin müstəqillik rəmzləri olan bayraqların, sancaqların, damğaların və digər atributların yaranma tarixi dərin köklərə malikdir. Arxeoloji qazıntılar nəticəsində Şəmkir və Şəki rayonlarında tapılmış buynuzlu maral, üzərində səkkizguşəli ulduz, günəş və müxtəlif həndəsi fiqurlar olan dairəvi lövhə və başqa formalı tunc sancaq (ştandart) başlıqlarının tarixi eradan əvvəl IV-II minilliklərə gedib çıxır [1, s.4].

Tarixi yaddaşın daşıyıcısı kimi damğaların hər bir xalqın, dövlətin tarixində xüsusi yeri vardır. Elmə məlum olan ən qədim damğaların təqribən 5000 il yaşı vardır [4, s.4]. Türkşünaslıq üzrə geniş akademik təcrübəyə malik, ABŞ-ın Berkli Universitetinin keçmiş professoru A.Sanducci yazır ki, hər bir türk tayfasının və ya xalqının müstəsna olaraq ona məxsus olan və onu ayrıca bir varlıq kimi fərqləndirən damğası var idi [5, s.715]. Türk xalqlarında damğa işarələrinin təyinatı və funksiyaları kifayət qədər geniş olmuşdur. Damğa nişanları türk xalqlarında, ilk növbədə, etnik və nəsil-tayfa mənsubiyyətini, dini və sosial mənşəyi, ayrı-ayrı fərdlərin, nəsil və ya tayfanın statusunu və s. bildirirdi. Tarixi mənbələrdə Ağqoyunlu dövlətinin Bayandur tayfasının aşağıdakı damğalarının olduğu məlumdur:




*şəkil 1 şəkil 2 [4,s.34]*

Ağqoyunluların tayfa başçısı Həmzə Bəyin (1437-1444) zamanından etibarən dövlətin emblemi olaraq qəbul edilmiş birinci şəkildəki damğa [13, s.8] Yazıçıoğlu Əlinin "Təvarixi əl-Səlcuq", Seyid Loğmanın "Hünərnamə" salnamələrində verilmişdir. Bu damğa Həmzə bəyin zamanında kəsdirilən sikkələrə də vurulurdu. Orxan Fuad Köprülü də Ağqoyunluların sikkələrində Bayandur damğasından istifadə edildiyini yazır [11]. İkinci şəkildə verilmiş damğa isə İranın cənub-qərbində yaşayan Qaşqay türklərinin milli simvolu kimi qəbul olunmuşdur ki, [4, s.38] ayrı-ayrı türk xalqlarının bayraqlarında qədim türk dövlətlərinin damğalarının işarəsinin verilməsi bizim ortaq mədəniyyətimizin daha bir təzahürüdür.

Qeyd etmək lazımdır ki, Səfəvilərə qədər tarixi Azərbaycan torpaqlarında və Şərqi Anadoluda hökmranlıq etmiş Bayandur tayfasının başçılıq etdiyi türkmən tayfalarının tayfa konfederasiyası olan ağqoyunlularda "Ağqoyunlu" adı şərti xarakter daşımaqla, Bayandur tayfasının ata-baba damğası "Ağ qoyun" (ağ qoç) əsasında meydana gəlmişdir. Tarixi mənbələrdə Ağqoyunluların bayraqlarının ağ rəngdə olması açıq şəkildə göstərilir. Bunun səbəbi isə bu dövlətin qurucuları olan oğuzların Bayandur boyundan gəldikləri üçün Ağqoyunluların Alem-i Sefid-i Bayanduri (Bayandurluların Ağ Bayrağı) adlandırılmaları ilə bağlıdır [8, s.77]. Orxan Fuad Köprülü də Ağqoyunluların bayrağının ağ rəngdə olması haqqında məlumat verərək onların üzərində ağ qoyun təsviri olan bayraqlardan istifadə etdiklərini qeyd edir. O, eyni zamanda Ağqoyunluların Bayandur damğası olan müxtəlif rəngli bayraqlarının da olduğunu bildirir [11]. Tədqiqatçı C. Vuds da, Ağqoyunluların Bayandur damğası ilə olan ağ bayrağı haqqında məlumat verir [14, s.104].

Ağqoyunlu dövlətində Bayandur damğasından rəsmi sənədləşmələrdə, kitabələrdə və sancaqlarda da istifadə olunurdu. Onların bəzilərində Bayandur damğası "əlhökm-lillah" ifadəsindəki "Lillah" sözünün yerində işlənmişdi [14, s.121].

Ağqoyunluların ayrı-ayrı sərkərdələrinin, ordu başçılarının bayraqları və sancaqları (sancaq – alay, əsgəri birlik bayrağı) [6] olmuşdur. Osmanlılara qarşı döyüş zamanı Uzun Həsənin oğlu Zeynal Mirzə və Uğurlu Məhəmmədin bayraqlarının olması barədə mənbələrdə məlumatlar vardır.[10, s. 93]

Qeyd etmək lazımdır ki, dövlətlərin bayraqları ilə yanaşı ayrı-ayrı hökmdarların da bayraqları olmuşdur. Onlardan biri, Ağqoyunlu hökmdarı Uzun Həsənə məxsus, ağ parçadan hazırlanmış üçbucaq formasında bayraq idi. Bu forma qədim türk ənənəsi olmaqla sonrakı dövrlərdə də davam etdirilmiş və təsadüfi deyildi ki, XVIII əsrdə Azərbaycan hökmdarlarının bayraqları da üçkünc olmuşdu.

Hal-hazırda Uzun Həsənin bayrağı İstanbuldakı Milli Saraylar - Topqapı Sarayında saxlanılır. Bu bayrağın Milli Saraylar - Topqapı Sarayında qorunması barədə Türkiyə və Azərbaycan tədqiqatçılarının əsərlərində məlumatın verilməsinə baxmayaraq, məhz ilk dəfə Dövlət Bayrağı Muzeyi tərəfindən onun inventar nömrəsi və saxlandığı fond müəyyən edilmiş və növbəti elmi tədqiqat mövzusu olmuşdu. Belə ki, Türkiyə Milli Saraylar İdarəsi Başqanlığına göndərilmiş 12.10.2023-cü il tarixli rəsmi müraciətimizə cavab olaraq Topqapı Sarayı tərəfindən Uzun Həsənin bayrağının surəti bizə göndərilmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin bu bayrağı Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq təqdim olunan məqalədə ayrıca problem kimi elmi tədqiqata cəlb olunmuşdur.



***Ağqoyunlu hökmdarı Uzun Həsənin bayrağı (XV əsr)***
***Milli Saraylar -Topqapı Sarayı, Silahlar kolleksiyası, inventar №1/3***

Ağqoyunluların bayrağının ağ rəngdə olması barədə türk tarixçisi İsmayıl Hakkı Uzunçarşılı ilk nəşri 1937-ci ildə olmuş əsərində qeyd edir ki, "biz bu dövlətin bayrağının ağ olmasını Dəvvaninin "Ərznamə" adlı əsərindən anlayırıq" [9,s.198]. Tehraniyə istinad edən türk tədqiqatçısı Kazım Paydaş da yazır ki, mənbədə ələm kimi qeyd olunan Ağqoyunlu dövlətinin bayrağının rəngi ağ idi. [10, s.92]. Orxan Fuat Köprülü də qeyd edir ki, tarixi mənbələrdə Ağqoyunlu sülaləsinin bayrağının ağ rəngdə olması açıq şəkildə ifadə edilir [11]. Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin İstanbuldakı Milli Saraylar - Topqapı Sarayında saxlanılan bayrağı İ.H.Uzunçarşılının kitabının üz qabığında və şəkillər hissəsində verilir [14, s.378].

Qeyd etmək lazımdır ki, qədim türklərin hərbi cəhətdən formalaşması dövründə rənglər sülh və müharibə şəraitində ünsiyyəti tənzimləyən vasitə rolunu oynamış, rəng palitrası isə əsas istiqamətləri müəyyən etməyə başlamışdı: qara şimal, qırmızı cənub, ağ qərb, mavi şərq istiqamətini göstərirdi. "Ağ" kəlməsi türk mədəniyyətində "batı" (Qərb), ya da "soylu" anlamını verirdi. Mənbələrdən bəlli olur ki, Bayandur xan ziyafətləri "ağ otaq"da verirdi. Şərqi Anadoluda dövlət quran Ağqoyunlular da ağ rəngdən bayraqlarında istifadə etmişlər. [13, s.10]

Qədim dövrlərdən bəri ağ rəng dünyanın bir çox sülalələrinin bayraqlarının rəngi olmuşdur. Bir çox mənbələrdə Çingiz xanın ağ bayrağının olmasından bəhs edilir. Asiya xalqlarının semantikasında ağ rəng dövlətdə sabitlik və əmin-amanlıq anlamını ifadə edirdi. Ağ rəng eyni zamanda güc əlaməti hesab olunurdu. Avropanın bir çox hakim sülalələrinin gerbləri və bayraqları da ağ rəngdə olmuşdur [15].

Ağ rəng İslamda ən təmiz və peyğəmbərin bayrağının rəngi hesab olunur. Təsadüfi deyildi ki, Əməvilərin (661-750) və Fatimilərin (909-1171) bayraqları ağ rəngdə olmuşdur. Şərqdəki monqol və türk sülalələri, o cümlədən Elxanilər, Oğuz türkləri və Səlcuqlular sülaləsinin də bayraqları ağ rəngdə idi.

İslamın qəbul edilməsindən sonra türk xalqlarının bayraqlarının müqəddəs mənası İslam simvolizmi kontekstində yenidən düşünüldü. Belə ki, İslam dini yayıldıqca, bayraqlardakı təsvirlər də dəyişmiş, getdikcə, xüsusən də dövlət rəmzlərində müsəlmançılığı bildirən təsvirlər yer almağa başlamışdır. Yəhya ibn Mahmud əl-Vasitinin (XIII əsr) miniatürlərində göstərilirdi ki, orta əsrlərdə yazıları olan dini bayraqlardan istifadə edilmişdir. Bu, Ağqoyunlu dövlətinin bayrağına da xas idi. Belə ki, bəhs etdiyimiz Topqapı Sarayında saxlanılan, Ağqoyunlu bayrağının mərkəzində damcı formasında olan elementdə Qurani-Kərimin əs-Saff surəsinin 13-cü ayəsi və "Məhəmməd Əli" sözləri yazılmışdır. Bu elementdən aşağıda təsvir edilən Uzun Həsənin tuğrasına Bayandur boyunun damğası da əlavə edilmiş, içərisində isə "Sultan Həsən Bahadur" sözləri yazılmışdır. Bayrağın kənarlarında müqəddəs Qurani-Kərimin ayələri – əl-Bəqərə surəsinin 255-ci, Ali-İmran surəsinin 181-ci, əl-Fəth surəsinin ilk iki ayəsi verilmişdir.

Bayrağın alt hissəsinin başlanğıcından etibarən sol tərəfinin ortasına kimi Qurani-Kərimin ən böyük "Bəqərə" surəsinin 255-ci ayəsi verilmişdir. Həmin ayənin tərcüməsində göstərilir: "Allahdan başqa heç bir tanrı yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!" [2, s.37].

Bayrağın sol hissəsinin ortasından etibarən Ali-İmran surəsinin 181-ci ayəsi verilir: "Allah kasıbdır, biz isə dövlətliyik" deyənlərin sözlərini Allah, əlbəttə, eşitdi. (Ya Rəsulum!) Biz onların dediklərini və peyğəmbərləri haqsız yerə öldürdüklərini (mələklər vasitəsilə əməl dəftərlərinə) yazacaq və (qiyamət günü) onlara: "Dadın atəşin əzabını!" – deyəcəyik" [2, s.60].

Bayrağın sağ tərəfindəki hissədə Qurani-Kərimin əl-Fəth (Fəth) surəsinin birinci və ikinci ayələri yazılmışdır: "(Ya Peyğəmbər) Həqiqətən, Biz sənə (müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə) açıq-aşkar bir zəfər bəxş etdik!

Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam - ka-

mal edəcək və səni düz yola müvəffəq edəcəkdir" [2, s.494].

Bayrağın ortasındakı dördbucaqlıda Ağqoyunlu hökmdarının adı – "Sultan Həsən Bahadır", damcı formalı elementin içərisində isə Qurani Kərimin əs-Saff (səf) surəsinin 13-cü ayəsi – "(Sizi hələ) sevdiyiniz başqa bir şey (bir nemət) də - Allah dərgahından kömək və yaxın qələbə (Məkkənin fəthi) gözləyir. (Ya Peyğəmbər!) Mö'minlərə (dünyada zəfərlə, axirətdə Cənnətlə) müjdə ver!" və "Ya Məhəmməd, Ya Əli" sözləri yazılmışdır [2, s.553].

Aparılmış tədqiqata yekun vuraraq qeyd etmək lazımdır ki, müəyyən bir ictimai-siyasi sistemdə insanların birliyini simvolizə edən predmet kimi meydana gəlmiş bayraqlar uzun bir təkamül yolu keçərək tədricən müasir görkəm almağa başlamışdır. Bu gün dövlət hakimiyyətinin rəmzi kimi istənilən müstəqil dövlətin vazkeçilməz atributu olan bayrağın hər bir detalı, hər bir rəngi müəyyən məna bildirməklə, xalqın tarixində baş vermiş vacib hadisələri simvolizə edir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan bayraqları. Kataloq. Bakı, Elm, 2005.*

*2. Bünyadov Z., Məmmədəliyev V. "Qurani Kərim" Azərbaycan dilində mənaca tərcüməsi. S. 37. https://www.academia.edu/11898780/Qurani_Kərim_Vasif_Məmmədəliyev_və_Ziya_Bünyadov*

*3. İmamverdiyeva K. Azərbaycan bayrağı. Bakı, 2017*

*4. Qurbanov A. Damğalar, rəmzlər... mənimsəmələr. Bakı, Strateji Araşdırmalar Mərkəzi, 2013.*

*5. Sanducci A. Qədim alimlər türk xalqları haqqında. Cild 2. Los Anceles, 2023. https://books.google.az/books?id=X_HNEAAAQBAJ&pg=PA715&lpg=PA715&dq=Seyid+Loğman+"-Hünərnamə"*

*6. Talıblı A. Türklərdə bayraqlar, sancaqlar və tuğlar. https://kafkassam.com/turkl%C9%99rd%C9%99-bayraqlarsancaqlar-ve-tuglar.html*

*7. Ahmedov Sebuhi. Türk halklarında devlet ve hâkimiyet sembolleri – "bayrak", "sancak", "tuğ". https://irs-az.com/new/pdf/201510/1444046998824373115.pdf*

*8. Elvin Yıldırım. Türk Kültüründe Renkler ve İfade Ettikleri Anlamlar, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayınlanmamış Yüksek Lisans Tezi. İstanbul, 2012*

*9. İsmail Hakkı Uzunçarşılı. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletlerı. II baskı. Türk Tarih Kurumu basım evi, Ankara, 1969.*

*10. Kazım Paydaş. Ak-koyunlu devlet teşkilatı. Doktora tezi. Ankara, 2003. https://silo.tips/download/tc-ak-koyunlu-devlet-teklati-doktora-tez-ankara-2003-tc-ankara-nverstes-sosyal-b*

*11. Orhan Fuad Köprülü, "Bayrak", İslam ansiklopedisi. https://islamansiklopedisi.org.tr/bayrak*

*12. Sümer Faruk. Karakoyunlular (Başlangıçtan Cihanşah'a Kadar), c. I, TTK Yayınları, Ankara 1967*

*13. Yaşar Ertaş. XV. Yüzyıl egitim ve bilim çalışmaları bağlanında Akkoyunlu medreseleri. Doktora tezi. İzmir, 2016.*

*14. John E.Vuds. 300 yıllık Türk İmparatorluğu Akkoyunlular*

*15. Аскар Кумыран. Исторические знамена казахов и их предков. https://www.academia.edu/44918978/Исторические_знамена_казахов_и_их_предков_обновленная_и_расширенная_версия_*

*16. Ксения Соснина. Бывают ли флаги нестандартной формы? https://aif.by/dontknows/byvayut_li_flagi_nestandartnoy_formy*


## XÜLASƏ


Bayraq dövlətlərin, orduların, icmaların, ictimai-siyasi təşkilatların fərqləndirici rəmzi olmaqla yanaşı, zaman keçdikcə xalqın şərəf və qürurunun daşıyıcısı, milli-mədəni irsinin, dövlətçilik tarixinin nümunəsidir. Bu baxımdan bayraqların tarixinin öyrənilməsi xüsusi aktuallıq kəsb edən problemlərdəndir. Təqdim olunan məqalədə tarixşünaslıqda ilk dəfə olaraq Ağqoyunlu hökmdarı Həsən xan Bayandurun (Uzun Həsənin) İstanbuldakı Milli Saraylar - Topqapı Sarayında mühafizə olunan bayrağı araşdırılmışdır.



**Açar sözlər:** *Ağqoyunlu dövləti, Həsən xan Bayandur (Uzun Həsən), bayraq, Milli Saraylar - Topqapı Sarayı.*

**Кенуль Имамведиева**
***Директор Музея Государственного Флага***
***Доктор философии по истории***

**РЕЗЮМЕ**

Флаг не только является отличительным символом государств, армий, сообществ, общественно-политических организаций, но со временем становится символом чести и гордости народов, частью национально-культурного наследия, истории государственности. В связи с этим изучение истории флагов является одной из актуальных проблем. В представленной статье впервые в историографии предметом обстоятельного исследования становится флаг правителя Аггоюнлу Гасан-хана Баяндура (Узун Гасана), хранящегося в Национальном дворце - дворце Топкапы в Стамбуле.

**Ключевые слова:** *Государство Агоюнлу, Гасан Хан Баяндур (Узун Гасан), флаг, Национальный дворцы - Дворец Топкапы.*

**Konul Imamverdiyeva**
***Ph.D. in History***
***Director of the State Flag Museum***

**SUMMARY**

The flag is not only a distinctive symbol of states, armies, communities, socio-political organizations, but over time it becomes a symbol of honor and pride of peoples, part of the national cultural heritage, and the history of statehood. In this regard, the study of the history of flags is one of the pressing problems. In the presented article, for the first time in historiography, the flag of the ruler Aggoyunlu Hasan Khan Bayandur (Uzun Hasan), kept in the National Palace - Topkapi Palace in Istanbul, becomes the subject of a detailed study.

**Key words:** *Aggoyunlu State, Hasan Khan Bayandur (Uzun Hasan), flag, National Palaces - Topkapi Palace.*